BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 Fizika-riyaziyyat elmləri seriyası 2012

# RİYAZİYYAT

## HESABLAMA RİYAZİYYATI KAFEDRASI – 50

**Q.Y.MEHDİYEVA, İ.Ə.QURBANOV**
***Bakı Dövlət Universiteti***
***ibvag47@mail.ru***

Bakı Dövlət Universitetinin Hesablama riyaziyyatı kafedrasının yarandığı dövrdən 50 il ötür.

XX əsrin 60-cı illərində bütün dünyada hesablama texnikası sürətlə inkişaf etməyə başladı. Saniyədə bir neçə milyon hesab əməllərini yerinə yetirə bilən elektron hesablama maşınları meydana gəldi. Bununla əlaqədar olaraq hesablama riyaziyyatı elminin də inkişaf etməsinə ehtiyac yarandı. Keçmiş SSRİ-nin ali məktəblərində və elmi-tədqiqat mərkəzlərində Hesablama mərkəzləri yaradıldı. Ona görə hesablama riyaziyyatı üzrə mütəxəssislərə tələbat artdı. Hesablama riyaziyyatı mütəxəssislərinə ehtiyacı ödəmək üçün Azərbaycan SSR-nin Nazirlər Soveti yanında Ali və orta təhsil komitəsi “Hesablama riyaziyyatı kafedrasının yaradılması haqqında” 15 aprel 1961-ci il tarixli 240 saylı qərar qəbul etdi. Qərarda deyilirdi ki, Azərbayacan Dövlət Universitetində Hesablama mərkəzi açıldığına görə və Hesablama riyaziyyatı ixtisası üzrə mütəxəssislərə olan tələbatı ödəmək məqsədi ilə Mexanika-riyaziyyat fakültəsində hesablama riyaziyyatı kafedrası yaradılsın. Bu sənədə əsasən 1961-ci ilin sentyabr ayında Mexanika-riyaziyyat fakültəsində hesablama riyaziyyatı kafedrası təşkil edildi. Kafedra yaradılarkən onun dörd əməkdaşı olmuşdur:

1. dos. Həbibzadə Əmir Şamil oğlu
2. dos. Abdullayev Tahir Həsən oğlu
3. ass. İbrahimova Stella Səttar qızı
4. ass. Kolubeva Violetta Aleksandrovna

Kafedraya rəhbərlik dos. Ə.Ş.Həbibzadəyə tapşırılmışdır. 1962-ci ildə kafedraya Z.B.Seyidov və Z.İ.Hüseynov işə qəbul edilmişlər. Kafedra yaradılan zaman Mexanika-riyaziyyat fakültəsinin tələbələrindən hesablama riyaziyyatı ixtisaslaşması təşkil olunmuş və 13 nəfər tələbə bu ixtisaslaşma üzrə universiteti bitirmişdir. O vaxtlar Azərbaycanda hələ hesablama maşınları olmadığından tələbələr hesablama praktikasını SSRİ EA-nın hesablama mərkəzində keçmişlər.

1960-1965-ci illərdə Rusiyanın Voronej İnşaat-Mühəndislər institutunda və eyni zamanda Voronej Dövlət Universitetində dosent vəzifəsində çalışan Y.C.Məmmədov 1965-ci ilin may ayında Rostov Dövlət Universitetinin birləşmiş regional Elmi Şurasında müvəffəqiyyətlə doktorluq dissertasiyası müdafiə etmiş və həmin il Azərbaycan Dövlət Universitetinin rəhbərliyinin dəvəti ilə Bakıya qayıdıb hesablama riyaziyyatı kafedrasına rəhbərlik etmək üçün kafedra müdiri seçilmişdir. O, bu vəzifədə ömrünün sonuna – 2000-ci ilə qədər çalışmışdır. Bu illər ərzində prof. Y.C.Məmmədovun böyük əməyi hesabına respublikada hesablama riyaziyyatı bir elm sahəsi kimi yaranaraq inkişaf etmişdir.

Ötən dövrdə kafedranın əməkdaşları tərəfindən 30-dan artıq dərslik, dərs vəsaiti, monoqrafiya və 400-dən çox elmi məqalə çap olunmuşdur.

2000-2006-cı illərdə kafedraya f.-r.e.d., prof. V.R.İbrahimov rəhbərlik etmişdir. 2006-cı ildən isə kafedraya f.-r.e.d., prof. Q.Y.Mehdiyeva rəhbərlik edir.

Kafedrada aparılan elmi işlərin istiqamətləri aşağıdakılardır: operator tənliklərin təqribi həll üsulları, adi diferensial tənliklərin təqribi həll üsulları, xüsusi törəməli diferensial tənliklərin və inteqral tənliklərin təqribi həll üsulları (prof. Q.Y.Mehdiyeva, prof. V.R.İbrahimov, dos. Z.B.Seyidov, dos. İ.Ə.Qurbanov, dos. A.Y.Əliyev, m. M.N.İmanova, m. A.M.Quliyeva, m. G.X.Şəfiyeva).

Hesablama riyaziyyatı kafedrasında müxtəlif illərdə aşağıdakı fənnlər tədris olunmuşdur: Avtomatik idarəetmə sistemləri, əməliyyatların tədqiqi, xətti proqramlaşdırma, təqribi hesablama üsulları, proqramlaşdırma, diskret riyaziyyat və s.

Sonralar tədris proqramlarının dəyişdirilməsi və tətbiqi riyaziyyat fakültəsinin yaradılması ilə əlaqədar olaraq fənlərin sayı və onlara ayrılan saatlar dəyişdirilmişdir. Hazırda hesablama riyaziyyatı kafedrasında bakalavr təhsil pilləsi üzrə hesablama üsulları, EHM və proqramlaşdırma, EHM-də praktikum, diskret riyaziyyat, hesablama riyaziyyatı, proqramlaşdırmaya giriş fənləri, magistratura təhsil pilləsində isə elm və təhsildə kompüter texnologiyası, adi diferensial tənliklərin təqribi həll üsulları, qeyri-korrekt məsələlər, operator tənliklərin təqribi üsullarla həlli, informatikanın bəzi məsələləri, splayn funksiya və onun tətbiqləri, təqribi üsulların təbiət elmləri məsələlərinin həllində rolu, xüsusi törəməli diferensial tənliklərin təqribi üsullarla həlli, cəbri tənliklərin təqribi üsullarla həlli, variasiya məsələlərinin ədədi üsullarla və hesablama riyaziyyatının müasir problemləri tədris olunur.

1966-cı ildən Hesablama riyaziyyatı kafedrasının tərkibində hesablama laboratoriyası fəaliyyət göstərir. Bu tədris laboratoriyası olmaqla, tələbələrin informatika texnologiyaları sahəsində biliklərə yiyələnməsinə və bu biliklərin yüksəldilməsinə xidmət edir. Tələbələrin sayı artdığına görə və laboratoriyadakı avadanlıqlar köhnəldiyinə görə tələbələrin heç də hamısı kompüterdən istifadə edə bilmirdilər. Akademik A.M.Məhərrəmov rektor olduqdan sonra

onun dəstəyi ilə kafedranın nəzdində 6 yeni laboratoriya açılmış və onlar kompüterlərin sonuncu nəsli ilə təchiz edilmişdir.

Kafedra müdiri prof. Q.Y.Mehdiyevanın rəhbərliyi ilə aparılan elmi-tədqiqat işinin beynəlxalq arenada təsdiqindən verilən qrantlar hesabına bu laboratoriyalar daha da zənginləşdirilmişdir.

Hazırda Hesablama riyaziyyatı kafedrasında tələbələrin və magistrantların elmə yiyələnməsi üçün tam şərait yaradılmışdır.

Laboratoriyalarda kafedranın "EHM və proqramlaşdırma" və "EHM-də praktikum" fənnləri tədris olunur.

1972-ci ildə Hesablama riyaziyyatı kafedrasının bazasında Tətbiqi riyaziyyat kafedrası yaradılmışdır. Həmin kafedraya Hesablama riyaziyyatı kafedrasından üç əməkdaş: dos. M.A.Vəliyev, baş müəllim S.S.İbrahimova və assistent K.S.Məmmədov keçmişlər.

Kafedrada AMEA-nın müxbir üzvü, prof. Y.C.Məmmədovun rəhbərliyi altında keçmiş SSRİ respublikaları və bir sıra xarici ölkələr üçün mütəxəssislər hazırlanmışdır.

Kafedranın əməkdaşlarının Moskva, Sankt-Peterburq, Kiyev, Daşkənd, Aşqabad, Kazan, Rostov, Tbilisi, Odessa, Novosibirsk, Voronej şəhərlərinin, Yaponiya, Türkiyə, Misir, Kanada kimi xarici ölkələrin universitetləri və digər elmi-tətqiqat institutları ilə elmi əlaqələri var.

Kafedranın əməkdaşlarından üç nəfəri (prof. A.A.Dosiyev, prof. A.İ.Həsənov, prof. Q.M.Əmirəliyev) Türkiyədə, bir nəfəri (dos. Y.Rəhimov) Kanadada çalışır.

Kafedra müdiri Y.C.Məmmədovun yüksək ixtisaslı kadrların hazırlanmasında böyük xidmətləri olmuşdur. Onun rəhbərliyi altında Azərbaycan, Rusiya, Özbəkistan, Türkmənistan, Əlcəzair, Misir, Polşa, Almaniya, Türkiyə kimi ölkələrin 32 nəfər nümayəndəsi namizədlik dissertasiyası və onlardan 7 nəfəri doktorluq dissertasiyası müdafiə etmişlər.

Y.C.Məmmədov Moskva (1966), Varşava, Krakov şəhərlərində (1974) müxtəlif ölkələrdə keçirilən beynəlxalq konfranslarda məruzələr etmiş, Polşa, Çexiya, Almaniya, Bolqarıstan, Türkiyə və İranda mühazirələr oxumuşdur. O, 109 elmi məqalənin, 5 dərsliyin və 7 monoqrafiyanın müəllifi olmuşdur.

Y.C.Məmmədov kafedra müdiri olduğu bütün illərdə elmi seminara rəhbərlik etmiş, bu seminarlarda Bakı şəhərinin müxtəlif müəssisələrindən mütəxəssislər iştirak edir, bir sıra başqa respublikalardan alimlər məruzə ilə çıxış edirdilər.

Y.C.Məmmədov kafedra müdiri olmağı ilə yanaşı 1971-ci ildən 1987-ci ilədək Bakı Dövlət Universitetinin elmi işlər üzrə prorektoru vəzifəsində çalışmışdır.

1987-ci ildə Universitet tarixində ilk dəfə olaraq, alternativ, demokratik seçki nəticəsində rektor seçilmişdir. O, 1989-cu ilədək bu vəzifədə çalışmışdır. Y.C.Məmmədov 1966-cı ildən fizika-riyaziyyat elmləri doktoru, 1967-ci ildən professor, 1981-ci ildən əməkdar elm xadimi, 1983-cü ildən AMEA-nın müx-

bir üzvü olmuşdur. O, 1976-cı ildə Azərbaycan Dövlət mükafatına layiq görülmüşdür. Y.C.Məmmədov Xalqlar dostluğu ordeni (1981), akademik Vavilov adına medalla (1988), Azərbaycan Respublikasının Ali Sovetinin Fəxri Fərmanları ilə (1980, 1981) təltif olunmuşdur. O, 1981-ci ildə ABŞ-ın Minneopolis şəhərinin fəxri vətəndaşı adına layiq görülmüşdür.

Onu əvəz edən kafedra müdirləri prof. V.R.İbrahimov və prof. Q.Y.Mehdiyeva Y.C.Məmmədovun qoyduğu ənənəni layiqincə davam etdirirlər. Təsadüfi deyildir ki, təkcə 2009-2011-ci ildə kafedranın azsaylı əməkdaşları tərəfindən 2 dərs vəsaiti, 37 məqalə və 56 tezis çap etdirilmişdir. Kafedranın yetirmələrindən prof. V.R.İbrahimov 2004-2011-ci illərdə BDU-nun Humanitar məsələlər işləri üzrə prorektoru vəzifəsində çalışmışdır. Prof. V.M.Musayev Azərbaycan Dövlət Pedaqoji Universitetində, dos. T.H.Abdullayev Azərbaycan Texniki Universitetində kafedra müdiri, dos. İ.Ə.Qurbanov dekan müavini (1989-1993), 1999-2010-cu illərdə I prorektorun müavini vəzifələrində çalışmışdır.

Kafedra bir neçə elmi konfranslar təşkil etmişdir: 2001-ci ildə MEA-nın müxbir üzvü Y.C.Məmmədovun 70 illik yubileyinə, 2006-cı il 22-23 fevral tarixində 75 illik yubileyinə və 27 dekabr 2010-cu il tarixində 80 illik yubileyinə həsr olunmuş beynəlxalq konfranslar.

Hazırda kafedrada iki f.-r.e.d., prof., üç f.r.e.n., dosent, iki baş müəllim və dörd müəllim, iki baş laborant və bir laborant çalışır.

Kafedranın tərkibi: prof. Q.Y.Mehdiyeva, prof. V.R.İbrahimov, dos. İ.Ə.Qurbanov, dos. Z.B.Seyidov, dos. A.Y.Əliyev, b/m. B.B.Balakişiyev, b/m. E.İ.Əzizbəyov, m. M.N.İmanova, m. A.M.Quliyeva, m. T.M.Əsgərov, m. G.X.Şəfiyeva, b/lab. R.R.Mirzəyev, b/lab. V.K.Musayev, lab. X.İ.Nəbiyeva.

Hesablama riyaziyyatı kafedrasının yubileyi münasibətilə kafedranın əməkdaşlarının məqalələri "Bakı Universitetinin xəbərləri"nin 3-cü sayında dərc olunur.

## ƏDƏBİYYAT


1. Məhərrəmov A.M. BDU-nun 80 illiyi. Bakı: "Bakı Universiteti" nəşriyyatı, 1999, s.446.
2. Məhərrəmov A.M. BDU-nun 90 illiyi. Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2009, s. 689.
3. BDU-nun arxivi.
4. Yəhya Məmmədov. Biblioqrafiya. Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2000, s. 137.



*Redaksiyaya daxil oldu: 12.08.2012-ci il*
*Çapa imzalandı: 20.10.2012-ci il.*